

# Ürəklərdə yaşayan qəhrəman ömrü

***Xalqımızın qəhrəmanlıq səhifəsinə yazılan adlardan biri də Cavid Əlikömək oğlu Sahratovdur. 30 ildən sonra əzəli, əbədi yurd yerimiz olan Qarabağı öz canı bahasına azadlığa qovuşduran bu Vətən sevdalısı Yardımlı rayonunun Əsədabad kəndində boya-başa çatmışdı. Qəhrəmanlığı ilə dastan yazan Cavidin ömür yolu 39 il oldu. Onu Vətəninə, xalqına verdiyi üçün əbədi olaraq ürəklərdə özünə yurd-yuva qurdu dağlar qartalı. Dövlətdə öz növbəsində qəhrəman oğlunu "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə " medallara layiq gördü.***

Lap az yaşında yaxşı əməllərlə el-obada sevilən Cavid 2000-ci ildə hərbi xidmətə çağırılır. Ön xətdə canından artıq sevdiyi doğma Azərbaycanın keşiyində durur. Layiqli bir övlad kimi onun qarşısında borcunu şərəflə yerinə yetirir. Zabitlərin, əsgərlərin sevimlisinə çevrilir Cavid. Müddətli hərbi xidmətini başa vurduqdan sonra işğal altında olan müqəddəs Vətən torpaqların qisasını yağıdan almaq məqsədilə yenidən orduya yazılır. Əsl vətəndaş, vətənpərvər əsgər olduğu Vətən naminə gördüyü işlərindən bilinir...

Cavid Aprel döyüşlərində xüsusi şücaət göstərir. Səpdiyi qəhrəmanlıq toxumu Vətənin şanlı qələbəsindən müjdələr gətirir. Öz qanını, canını belə əsirgəmədən Qarabağın müdafiəsinə qalxır. Vətəni necə sevməyi, torpağı necə qorumağı elə Vətən torpaqları naminə müharibə meydanında sübut etmək istəyir. İkinci Qarabağ müharibəsi başlayan kimi Cavid bir müqəddəs amalın işığında düşmənlə döyüşə atılır. Qeyri-bərabər savaşlarda yağıya qan qusdurur. Vətən məhəbbəti döyüşdəndöyüşə Cavidə güc-qüvvət verir. Qəhrəman Vətən oğlunun son döyüşü oktyabrın 9-da Füzulidə olur. Öz xalqının xoşbəxt gələcəyi üçün çəkinmədən polad sinəsini Vətənə tuşlanan güllələrə sipər etməyi bacarır.

İndi minlərlə igid oğullar kimi, Cavidin adı da bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadır. Qərinələr ötəcək, xalqına, Vətəninə bağlı şərəfli həyatı gələcək nəsillərə də əsl həyat məktəbi olacaq.

Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü

**Unikal.- 2022- ci il.- 1 iyul.- S. 15.**